AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

PUL SİYASƏTİ İCMALI

Yanvar- Sentyabr 2020

№3

MÜNDƏRİCAT

Ön söz		3
I. Qlobal iqtisadi mühit və xarici sektor		**4**
1.1.	Qlobal iqtisadiyyatda meyillər	4
1.2.	Azərbaycan iqtisadiyyatının xarici sektoru üzrə proseslər	13
II. Azərbaycanda makroiqtisadi proseslər		**18**
2.1.	Məcmu daxili tələb	18
2.2.	Məcmu təklif və məşğulluq	23
2.3.	İnflyasiya	27
III. Pul və məzənnə siyasəti		**31**
3.1.	Valyuta bazarı və manatın məzənnəsi	31
3.2.	Pul siyasəti alətləri	34
3.3.	Pul təklifi	37
İstifadə olunmuş qrafik və cədvəllər		40

ABREVİATURALAR

AMB	Azərbaycan Respublikasının Mərkəzi Bankı
AİB	Asiya İnkişaf Bankı
ASEAN	Cənubi-Şərqi Asiya Ölkələri
AYİB	Avropa Yenidənqurma və İnkişaf Bankı
BƏT	Beynəlxalq Əmək Təşkilatı
BVF	Beynəlxalq Valyuta Fondu
BOKT	Bank Olmayan Kredit Təşkilatı
BXİ	Birbaşa Xarici İnvestisiyalar
DSK	Dövlət Statistika Komitəsi
DGK	Dövlət Gömrük Komitəsi
FES	Federal Ehtiyatlar Sistemi
İEOÖ	İnkişaf Etməkdə Olan Ölkələr
İEÖ	İnkişaf Etmiş Ölkələr
İƏİT	İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı
İQİ	İstehlak Qiymətləri İndeksi
KİQİ	Kənd Təsərrüfatı Məhsullarının İstehsalçı Qiymətləri İndeksi
KOS	Kiçik və Orta Sahibkarlıq
NEM	Nominal Effektiv Məzənnə
MBK	Məcmu Buraxılış Kəsiri
OPEC	Neft İxrac Edən Ölkələrin Təşkilatı (Organization of the Petroleum Exporting Countries)
REM	Real Effektiv Məzənnə
RSM	Real Sektorun Monitorinqi
SİQİ	Sənaye Məhsullarının İstehsalçı Qiymətləri İndeksi
ÜDM	Ümumi Daxili Məhsul
ÜTT	Ümumdünya Ticarət Təşkilatı

ÖN SÖZ

2020-ci ilin 9 ayında Mərkəzi Bankın pul siyasəti inflyasiyanın elan edilmiş hədəf diapazonunda (4±2%) saxlanılmasına yönəldilmişdir.

Hesabat dövründə pul siyasəti koronavirus (COVİD-19) pandemiyasının təsirləri ilə beynəlxalq əmtəə və maliyyə bazarlarında kəskin dalğalanmalar, qlobal və daxili iqtisadi mühitdə qeyri-müəyyənliklərin əhəmiyyətli artması şəraitində həyata keçirilmişdir.

Dövr ərzində iqtisadiyyatda inflyasiyaya azaldıcı təsir göstərən amillərin üstünlüyü şəraitində inflyasiya qəbul edilmiş hədəf diapazonunun mərkəzindən aşağıda qorunmuşdur. Pandemiyanın yaratdığı qeyri-müəyyənliklər fonunda istehlak və investisiya xərclərinin azalması ilə məcmu tələbin daralması başlıca antiinflyasiya amili kimi çıxış etmişdir. Digər tərəfdən tənzimlənən qiymətlərin sabitliyi və makroiqtisadi sabitliyin qorunmasına yönəlmiş iqtisadi siyasət çərçivəsi qiymət sabitliyini dəstəkləmişdir. İnflyasiya gözləntiləri sektorlar üzrə fərqli istiqamətlərdə dəyişsə də, bütün iqtisadi subyektlər üzrə inflyasiya gözləntiləri faktiki göstəricilərə yaxın formalaşmışdır. Valyuta bazarında sabitliyin təmin olunması inflyasiyanın və inflyasiya gözləntilərinin aşağı səviyyədə saxlanılmasında mühüm rol oynamışdır.

Hesabat dövründə pul siyasəti qərarları monetar şəraitin yumşaldılması istiqamətində qəbul edilmişdir. Faiz dəhlizinin parametrlərində edilən dəyişikliklər makroiqtisadi sabitlik hədəflərilə iqtisadi aktivliyin dəstəklənməsi prioritetlərinin uzlaşdırılmasına yönəldilmişdir. Makroiqtisadi sabitliyin təmin edilməsi üçün Mərkəzi Bank vəziyyətdən asılı olaraq pul siyasəti alətlərini adekvat tətbiq etmişdir.

Hesabat dövründə pandemiyanın neqativ təsirləri iqtisadi aktivlik göstəricilərində də özünü göstərmişdir. İqtisadi aktivlik stimullaşdırıcı fiskal və monetar siyasət, davam edən makroprudensial yumşalma ilə dəstəklənmişdir. Pandemiyadan zərər çəkmiş biznesə və maliyyə sektoruna dəstək məqsədilə tətbiq edilən makroprudensial tənzimləmə güzəştləri monetar şəraitin yumşaldılmasının transmissiyasına və real sektorun kreditləşdirilməsi şərtlərinin yaxşılaşdırılmasına əlavə dəstək vermişdir.

I. QLOBAL İQTİSADİ MÜHİT VƏ XARİCİ SEKTOR

1.1. Qlobal iqtisadiyyatda meyillər

2020-ci ilin 9 ayı ərzində qlobal iqtisadiyyatın dinamikası milli hökumətlərin karantin tədbirlərinin sərtliyinə müvafiq olaraq dəyişmişdir. İlin ortasına doğru nisbətən səngiyən COVID-19 pandemiyasının, avqustdan yenidən güclənməsi ilə bir çox ölkələr yenidən məhdudlaşdırıcı tədbirləri bərpa etmişlər. Çində bərpa prosesinin gözləniləndən daha sürətli olmasına baxmayaraq, qlobal iqtisadi aktivlik göstəricilərinin pandemiya öncəsi fəaliyyət səviyyələrinə qayıtması çox ləng gedir. Ümumilikdə dövr ərzində qlobal iqtisadiyyatda qeyri-müəyyənliklər yüksək olaraq qalmış, karantin tədbirləri istehlak və investisiyaları azaltmaqla istehsala və ticarətə mənfi təsir göstərmişdir.

Qlobal iqtisadi aktivlik. 2020-ci ilin ötən dövründə pandemiya nəticəsində qlobal iqtisadiyyatda aktivlik azalmışdır. Dünya iqtisadiyyatında 62%-dən çox paya malik İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələri üzrə Biznes İnam İndeksi II rübdəki kəskin enişin ardınca III rübdə ilin əvvəlindəki səviyyəyə qayıtsa da, İstehlakçı İnam İndeksi III rübdə bir qədər yüksəlməsinə baxmayaraq hələ də ilin əvvəlindəki səviyyədən çox aşağıdır.

Qrafik 1. İƏİT ölkələrində qabaqlayıcı iqtisadi aktivlik indeksləri



Mənbə: İƏİT

Müşahidə edilən meyilləri nəzərə alaraq beynəlxalq maliyyə-kredit təşkilatları qlobal iqtisadi aktivliklə bağlı proqnozlarını müxtəlif istiqamətlərdə təshih edirlər. Beynəlxalq Valyuta Fondu oktyabrda dünya iqtisadiyyatının dinamikası ilə bağlı proqnozu yaxşılaşdırmaq istiqamətində təshih etmişdir. "Qlobal İqtisadi İcmal" hesabatı

ilə açıqlanan yeni proqnoza görə 2020-ci ildə qlobal iqtisadiyyatda 4.4% azalma gözlənilir. Müsbət təshihin səbəbi III rübün əvvəlində COVID-19 pandemiyası ilə əlaqədar məhdudiyyət tədbirlərinin tədricən aradan qaldırılması və ilin sonuna doğru bərpa prosesinin sürətlənəcəyi gözləntisi idi.

Qrafik 2. İqtisadi artım proqnozları, %



Mənbə:BVF

BVF-nin oktyabr proqnozuna əsasən **ABŞ** iqtisadiyyatı 2020-ci ildə 4.3% kiçiləcək (iyun hesabatında 8% proqnozlaşdırılırdı). Gözləntilərin yaxşılaşmasının əsas səbəbləri pandemiya ilə bağlı mədudlaşdırma tədbirlərinin tədricən azaldılması ilə əlaqədardır. ABŞ iqtisadiyyatı ölkə tarixindəki ən uzun genişlənmə dövrünü başa vuraraq 2020-ci ilin II rübündə illik 9% , III rübdə isə 2.9% kiçilmişdir. ABŞ-da sentyabrda işsizlik avqusta nəzərən 0.5% azalaraq 7.9%-ə enmişdir ki, bu da həmin aya gözləntilərdən (8.2%) aşağıdır. İşsizlərin sayı 1 milyon azalaraq 12.6 milyona çatmışdır.

İlin 9 ayı ərzində Dow Jones indeksi 4.2%, S&P 500 indeksi isə 22.8% azalmış, III rüb ərzində isə müvafiq olaraq 7.3% və 4.2% dəyər qazanmışdır. ABŞ-da investisiyaların həcmi və sənaye məhsuldarlığı da zəifləmişdir. ABŞ-da sənaye məhsulu istehsalı 2020-ci ilin sentyabr ayında illik müqayisədə 7.3%, avqust ayı ilə müqayisədə isə 0.6% azalmışdır. Böhrana cavab olaraq, hökumət və mərkəzi bank geniş stimullaşdırıcı siyasət tədbirlərini davam etdirmişdir. İqtisadi artımın mənfi zonaya düşməsi fonunda ABŞ Federal Ehtiyatlar Sistemi (FES) 2020-ci ilin əvvəlindən bəri faizləri 1.5-1.75%-dən mərhələli şəkildə 0-0.25%-ə qədər endirmişdir. FES sentyabrın 30-da başa çatması

planlaşdırılan kredit imkanlarının (lending facilities) 31 dekabr tarixinə qədər, qisamüddətli likvidlik xəttinin və müvəqqəti geri satınalma müqavilələrinin müddətinin 31 Mart 2021-ci il tarixinədək uzadılacağını elan etmişdir.

BVF-nin oktyabr hesabatına əsasən, 2020-ci ildə **Avrozona** iqtisadiyyatı 8.3% kiçiləcəkdir (iyun gözləntisi 10.2%). Avrozonada sənaye məhsulu istehsalı 2020-ci ilin sentyabrında avqust ayı ilə müqayisədə 0.4%, ötən ilin müvafiq ayı ilə müqayisədə isə 6.8% azalmışdır. Bu da əsasən Almaniya (9.6%), Fransa (6.2%) və İspaniyada (5.7%) sənaye məhsulu istehsalının azalması ilə bağlıdır. Dövr ərzində zonada işsizlik bazar gözləntilərinə uyğun olaraq artım meyili nümayiş etdirərək sentyabrda 8.3% olmuşdur. Regionda karantin tədbirlərinin tədricən yumşalması dövrün sonuna həm istehlakçı, həm də biznes inamına müsbət təsir göstərmişdir. 2020-ci ilin sentyabr ayında iqtisadi sentiment indeksi bərpa meyilləri göstərərək bir ay ərzində 87.5-dən 90.9-a yüksəlmişdir. Bundan əlavə, zonanın aparıcı maliyyə indeksi FTSE Eurotop ilin əvvəlindən 17.2%, III rüb ərzində isə 2.4% dəyər itirmişdir. Dövr ərzində pandemiyanın neqativ təsirlərinə qarşı həm monetar, həm də fiskal tədbirlər davam etdirilmişdir. 2020-ci ilin 4 iyun tarixində Avropa Mərkəzi Bankı Pandemiya ilə bağlı Təcili Satınalma Proqramının həcminin 1350 milyard avroya qaldırılması barədə qərar qəbul etmişdir. 10 sentyabr iclasında Avropa Mərkəzi Bankı faiz dərəcəsini 0% səviyyəsində dəyişməz saxlamaq qərarı vermiş və inflyasiya 2%-ə yaxınlaşana qədər faiz dərəcəsini artırmayacağını bildirmişdir.

2020-ci ildə **Yaponiya** iqtisadiyyatının 5.3% kiçiləcəyi gözlənilir (iyun proqnozu 5.8%). Ölkə üzrə işsizlik 2020-ci ilin sentyabrında dəyişməz qalaraq 3% olmuşdur. Sentyabrda sənaye istehsalı avqust ilə müqayisədə 4% artmış, ötən ilin müvafiq ayı ilə müqayisədə 9% azalmışdır. Ölkənin turizm sektorunda əhəmiyyətli geriləmə müşahidə olunmuşdur. Belə ki, 2020-ci ilin avqust ayında ölkəyə gələn xarici turistərin sayı ötən ilin müvafiq

dövrü ilə müqayisədə 2 dəfə azalmışdır. 2020-ci ilin iyul ayında planlaşdırılan Tokio Olimpiya oyunlarının təxirə salınması turizm sektoruna əlavə mənfi təsir göstərmişdir. II rübdə karantin tədbirlərinin tədricən aradan qaldırılması istehlakçı inamına müsbət təsir etmişdir. Ölkənin aparıcı fond indeksi Nikkey ilin əvvəlindən 1.6% ucuzlaşsa da, III rübdə 4% dəyər qazanmışdır. İqtisadiyyata dəstək məqsədilə Yaponiya Mərkəzi Bankı iyun ayının 16-da "Koronavirus kredit proqramının" həcmini 75 trilyon yendən 110 trilyon yenə qaldırmaq qərarı vermişdir. Bundan əlavə, Yaponiya hökumətinin may ayının 27-də elan etdiyi 117.1 trilyon yen məbləğində fiskal paketi biznes, ev təsərrüfatları, eyni zamanda səhiyyə sisteminə dəstək və yerli hökumətlərə transfer üçün nəzərdə tutulmuşdur.

BVF-nin oktyabr hesabatına əsasən **Birləşmiş Krallıqda** 2020-ci ildə ÜDM-in 9.8% kiçiləcəyi gözlənilir (iyun hesabatında 10.2% kiçilmə). Bu da iqtisadi artım statistikasının açıqlandığı 1955-ci ildən bəri müşahidə olunan ən aşağı göstəricidir. ÜDM 2020-ci ilin III rübündə əvvəlki ilin eyni rübünə nəzərən 9.6% azalmışdır. Qlobal iqtisadi şəraitin kəskin pisləşməsi Birləşmiş Krallığın ixracına tələbi azaltmış və qeyri-müəyyənliklər ölkədə investisiya qoyuluşuna mənfi təsir göstərmişdir. Birləşmiş Krallıqda sənaye məhsulu istehsalı 2020-ci ilin sentyabrında avqust ilə müqayisədə 0.5% artmış, ötən ilin müvafiq ayı ilə müqayisədə isə 6.3% azalmışdır. 2020-ci ilin sentyabrında ölkədə işsizlik 4.8% təşkil etmişdir ki, bu da 2016-cı ilin son rübündən bəri qeydə alınan ən yüksək işsizlik göstəricisidir. III rübdə ingilis funt sterlinqi dollara qarşı 4.3% dəyər qazanmışdır. Antiböhran tədbirləri çərçivəsində hökumət və mərkəzi bank geniş fiskal və monetar dəstək tədbirləri həyata keçirməyə davam etmişdir. Mərkəzi Bank faiz dərəcəsini 0.65% bəndi azaldaraq 0.75%-dən 0.1%-ə endirmiş, dövlət və qeyri-maliyyə korporativ istiqraz alışlarının həcmini 200 milyard funt sterlinqə çatdırmışdır.

BVF-nin oktyabr hesabatında verdiyi proqnozlarına görə pandemiyanın yaratdığı iqtisadi böhran nəticəsində 2020-ci ildə İEOÖ-də 3.3%-lik iqtisadi daralma gözlənilir (iyun hesabatında 3%-lik daralma). İnkişaf Etməkdə Olan Asiya ölkələrində 1.7%, İnkişaf Etməkdə Olan Avropa ölkələrində isə 4.6% səviyyəsində eniş gözlənilir. 2020-ci ildə Latın Amerikası və Karib hövzəsi ölkələrində 8.1%, Mərkəzi və Orta Asiya ölkələrində 4.1%, Sub-Saxara Afrika ölkələrində isə 3% səviyyəsində resessiya olacağı gözlənilir.

BVF-nin iyun hesabatında olduğu kimi oktyabr hesabatında da 2020-ci ildə **Çin** iqtisadiyyatı üzrə müsbət iqtisadi artım gözlənilir (1.9%). III rübdə ölkədə karantin tədbirlərinin aradan qaldırılması fonunda iqtisadi aktivlik göstəricilərində bərpa meyilləri müşahidə olunmuşdur. Çində bərpa prosesi digər olkələrlə müqayisədə daha sürətlə gedir. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin III rübündə ölkədə iqtisadi artım tempi 4.9% olmuşdur ki, bu da II rüblə müqayisədə 1.7 faiz bəndi çoxdur. Ölkədə sənaye məhsulu istehsalı ötən ayla müqayisədə 2020-ci ilin sentyabr ayında 1.2%, 2019-cu ilin sentyabrı ilə müqayisədə isə 6.9% artmışdır. Oxşar meyil əsas kapitala investisiya qoyuluşunda da müşahidə olunmuşdur. Ölkədə işsizlik sentyabrda 5.4% olmuşdur ki, bu da ötən ayla müqayisədə 0.2 faiz bəndi azdır. 2020-ci ilin sentyabrında əvvəlki aya nisbətən ölkədə istehlakçı inam indeksi artmışdır ki, bu da insanların iqtisadi gözləntilərində qeyri-müəyyənliklərin azalması ilə bağlıdır. Pandemiya ilə bağlı iqtisadiyyata dəstək məqsədilə 2020-ci ilin iyun ayında Çin Xalq Bankı yerli bankların kiçik və orta bizneslərə vermiş olduğu təminatsız və ən azı 6 aylıq ödəmə müddəti olan kreditlərinin 40 faizini müvəqqəti olaraq almaq qərarını açıqlamışdır.

BVF-nin oktyabr hesabatı 2020-ci ildə **Rusiyada** iqtisadi daralmanın 4.1% olacağını bildirir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin III rübündə ölkədə iqtisadi daralma 3.6% olmuşdur ki,

bu da gözləntilərdən 0.9 faiz bəndi daha azdır. Ölkədə işsizlik sentyabrda 6.3%-ə düşmüşdür ki, bu da ötən ayla müqayisədə 0.1 faiz bəndi azdır. Ötən ayla müqayisədə 2020-ci ilin sentyabrında sənaye məhsulu istehsalı dəyişməmiş, 2019-cu ilin sentyabrı ilə müqayisədə 5% azalmışdır. Eyni zamanda, dövr ərzində istehlakçı inam indeksi də mənfi zonada qərarlaşmışdır. Belə ki, III rübdə istehlakçı inam indeksi II rübdəki -30-dan -22-yə yüksəlmişdir. Pandemiya nəticəsində yaranan qeyri-müəyyənliklər və neftin əlverişsiz qiyməti rus rublunun 9 ay ərzində 27.4% ucuzlaşmasına səbəb olmuşdur. III rübdə bir sıra ölkələrdə karantin rejiminin yumşaldılması və əsas istehsalçılar tərəfindən neft hasilatının azaldılması nəticəsində neft qiymətlərinin volatilliyinin azalmasının ölkənin fiskal gəlirlərinə müsbət təsir edəcəyi gözlənilir. 2020-ci il iyun ayının 19-da Rusiya Bankı pul siyasətini yumşaldaraq əsas faiz dərəcəsini 4.25%-ə endirmiş və III rübdə dəyişməz saxlamışdır. Eyni zamanda, Rusiya hökuməti 2021-ci ilin sonuna qədər işsizliyi azaltmaq və iqtisadi artım tempini artırmaq məqsədilə 5 trilyon rubl dəyərində "İqtisadi Bərpa üçün Milli Plan" hazırlamışdır.

2020-ci il üzrə **Türkiyədə** 5% səviyyəsində resessiya gözlənilir. Bu ölkədə II rübdə 9.9%-lik iqtisadi daralma qeydə alınmışdır. İşsizliyin artması, sənaye məhsulu indeksinin azalmasına paralel şəkildə sentyabrda ölkədə inflyasiya 11.75% səviyyəsində qərarlaşmışdır. Pandemiya nəticəsində yaranan qeyri-müəyyənlik və geosiyasi gərginliklər türk lirəsinin ABŞ dollarına qarşı 9 ayda 31.3% ucuzlaşmasına səbəb olmuşdur. Pandemiyanın makroiqtisadi təsirlərini azaltmaq və antiböhran tədbirləri çərçivəsində, Türkiyə Mərkəzi Bankı ilin əvvəlindən faiz dərəcəsini 12%-dən 8.25%-ə endirmiş, lakin lirənın kəskin dəyər itirməsinin qarşısını almaq üçün III rübün sonunda faiz dərəcəsini 2 faiz bəndi artıraraq 10.25% səviyyəsində müəyyən etmişdir.

Resessiya və pandemiyanın müddəti ilə bağlı qeyri-müəyyənliklər özünü qlobal ticarət və investisiyalarda da

göstərməkdədir. Belə ki, BVF-nin yenilənmiş qiymətləndirmələrinə əsasən 2020-ci ildə qlobal ticarətin 10%-dən çox azalacağı proqnozlaşdırılır. BMT-nin Ticarət və İnkişaf üzrə Agentliyinin (UNCTAD) "Dünya İnvestisiya Hesabatı"-a əsasən qlobal birbaşa xarici investisiyaların həcmi 2020-ci ildə 40%-ə qədər, 2021-ci ildə isə 5-10% aralığında azalacaq, və bərpa prosesi 2022-ci ildən tez başlamayacaqdır.

Əmtəə bazarları. 2020-ci ildə dünya bazarında əmtəə qiymətləri çox dəyişkən olmuşdur. Dünya Bankının (DB) əmtəə bazarları haqqında son məlumatlarına əsasən 2020-ci ilin 9 ayında enerji qiymətləri 33.7% azalmış, qeyri-enerji qiymətləri 4.5%, ərzaq qiymətləri 1.5% artmışdır. Qiymət dəyişikliyi rüblər üzrə fərqli olmuşdur. III rübdə enerji qiymətləri 5.4%, qeyri-enerji əmtəə qiymətləri 9.6%, ərzaq qiymətləri 6.1%, qiymətli metal qiymətləri isə 15.4% yüksəlmişdir. Qiymətli metallardan qızılın qiyməti 2020-ci III rübü ərzində 6.8% artmışdır.

Qrafik 3. Əmtəə qiymətləri indeksi (2010=100)



Mənbə:Dünya Bankı

Enerji qiymətlərindəki artım əsasən neft və təbii qaz qiymətlərindən təsirlənmişdir. DB-nin əmtəə qiymətləri haqqında son məlumatlarına əsasən 2020-ci ilin yanvar-sentyabr aylarında təbii qaz qiyməti indeksi 17.2% azalmışdır.

Qrafik 4. Dünya neft bazarı, milyon barrel/gün



Mənbə: Enerji İnformasiya Administrasiyası (EİA)

Dünya bazarında Brent markalı neftin hər bareli üçün orta qiyməti 2020-ci ilin 9 ayında 42.3 ABŞ dolları təşkil etmişdir. Rüblər üzrə neftin qiyməti də çox dəyişkən olmuşdur. III rübdə orta qiymət 43.3 ABŞ dolları səviyyəsində olmuşdur ki, bu da 2020-ci ilin II rübünün orta qiymətindən 30.1% yuxarıdır. Beynəlxalq Enerji Agentliyinin "Neft Bazarı" hesabatının oktyabr buraxılışına əsasən 2020-ci il ərzində qlobal neft tələbinin 97.2 mln. barel/gün olacağı proqnozlaşdırılır. Bu ötən ilin proqnozuna nisbətən 8.4 mln. barel/gün azdır.

Risklər. Pandemiyanın qlobal iqtisadi aktivliyə təsiri davam etməkdədir. BVF-in 2020-ci ilin oktyabr ayında dərc edilmiş "Qlobal İqtisadi İcmal" hesabatına əsasən, pandemiya səbəbindən qlobal iqtisadiyyatla bağlı qeyri-müəyyənliklər nisbətən azalmaqdadır.

Dünya üzərində yoxsulluq riski öz aktuallığını qorumağa davam edir. Belə ki, dünyada 90 milyon insan gündəlik 1.9$-lıq gəlirin altına düşmək riski ilə üz-üzədir. Bundan əlavə olaraq, pandemiyanın məktəblər və universitetlərə təsirləri insan kapitalının keyfiyyətinə ciddi zərər vurur.

Ümumilikdə beynəlxalq maliyyə-kredit təşkilatları qlobal iqtisadiyyat üçün hazırda aşağıdakı başlıca risklərin mövcud olduğunu qeyd edirlər:

- Təchizat zəncirinin qırılması;
- Likvidlik və müflisləşmə riskləri;
- İşsizliyin daha da artması və yoxsulluq;
- Zəif iqtisadiyyatların borc ala bilməməsi;
- Faizlərin və risk premiyalarının yüksəlməsi.

Bu şəraitdə bir neçə istiqamətdə səylərin gücləndirilməsi tələb olunur.

Birincisi, ölkələr beynəxalq müstəvidə virus əleyhinə peyvənd və müalicə üçün müştərək işləməlidirlər. Belə ki, beynəlxalq əməkdaşlıq kifayət qədər peyvənd istehsalına və bütün ölkələr üçün əlçatan olmağına tövhə verməlidir.

İkincisi, siyasətlər mütəmadi olaraq iqtisadi zərərin qarşısını almağa meyilli olmalıdır. Məsul qurumlar ev təsərrüfatlarına və şirkətlərə maliyyə dəstəyi davam etdirməlidir ki, müflisləşmənin və işsizliyin artmasının qarşısı alınsın.

Nəhayət, bütün bu siyasətlər tədbiq olunarkən orta və uzunmüddətdə dayanıqlı və davamlı iqtisadi böyümə əsas götürülməlidir. Bundan əlavə yumşaq fiskal və pul siyasəti makroprudensial alətlərlə birgə istifadə olunmalıdır ki, əlavə maliyyə riskləri yaranmasın.

1.2 Azərbaycan iqtisadiyyatının xarici sektoru üzrə proseslər

2020-ci ilin 9 ayında Azərbaycanın xarici iqtisadi mövqeyi Covid-19 pandemiyası və əsas ixrac məhsullarının qiymətlərinin dəyişiminin təsirləri altında formalaşmışdır.

Dövlət Gömrük Komitəsinin (DGK) məlumatlarına əsasən 2020-ci ilin 9 ayında xarici ticarət dövriyyəsi 18.4 mlrd. ABŞ dolları təşkil etmişdir ki, bunun da 10.6 mlrd. ABŞ dolları (və ya 57.6%-i) ixracın, 7.8 mlrd. ABŞ dolları (və ya 42.4%-i) isə idxalın payına düşmüşdür. Xarici ticarət balansında 2.8 mlrd. ABŞ dolları məbləğində müsbət saldo əmələ gəlmişdir.

Qrafik 5. Ticarət balansı, mlrd. ABŞ dolları



Mənbə: DGK

Dövr ərzində 178 ölkə ilə ticarət əməliyyatları həyata keçirilmişdir.

Qrafik 6. Ticarət dövriyyəsində əsas ölkələr, 2020 9 ay , %-lə



Mənbə: DGK

Ticarət dövriyyəsinin yarıdan çoxu İtaliya, Türkiyə, Rusiya, Çin, Almaniya və Ukrayna kimi ölkələrin payına düşmüşdür. Əvvəlki dövrlərdə olduğu kimi ticarət dövriyyəsində ən yüksək pay İtaliyaya məxsus olmuşdur.

Cari ilin 9 ayında İtaliya ilə ticarət dövriyyəsinin ümumi dövriyyədə payı ötən ilin müvafiq dövrünə nəzərən 0.7 faiz bəndi artaraq 18.6% təşkil etmişdir. Türkiyə ilə ticarət dövriyyəsinin ümumi dövriyyədə payı 4.3 faiz bəndi artaraq 17.6%, Rusiya ilə 2.2 faiz bəndi artaraq

10.5%, Çin ilə 1.2 faiz bəndi artaraq 7.8% Ukrayna ilə 0.7 faiz bəndi artaraq 3.2% olmuşdur. Almaniya ilə ticarət dövriyyəsinin ümumi dövriyyədə payı isə 1.5 faiz bəndi azalaraq 3.4% təşkil etmişdir.

Hesabat dövründə ixrac 28.8%, qeyri-neft ixracı isə 9.3% azalmışdır. İxracın dəyəri xam neft üzrə 36.5%, neft məhsulları üzrə 35.2% azalmış, təbii qaz üzrə isə 4.5% artmışdır.

Ötən ilin eyni dövrü ilə müqayisədə neft ixracı I rübdə 7%, II rübdə 25%, III rübdə 31% azalmışdır. Qeyri-neft ixracı isə müvafiq olaraq I rübdə 3% artdığı halda, II rübdə 7%, III rübdə 9% azalmışdır.

Qrafik 7. İxracın artım tempi, ö.i.m.d.n %-lə



Mənbə: DGK

İxracda əsas tərəfdaşlar İtaliya (29.4%), Turkiyə (19.9%), Rusiya (4.7%), Yunanıstan (4.1%), Çin (4%), Hindistan (3.9%) kimi ölkələr olmuşdur.

Dövr ərzində qeyri-neft sektoru üzrə ixracı artan əsas məhsullar meyvə-tərəvəz olmuşdur. Belə ki, ixracın dəyəri meyvə-tərəvəz üzrə 3.2% artmışdır.

Qrafik 8. 2020 9 ayında bəzi məhsullar üzrə ixracın dəyişimi, %-lə



Mənbə: DGK

2020-ci ilin 9 ayında əmtəə idxalı 24.6% azalmışdır. O cümlədən, dövlət sektoru üzrə əmtəə idxalı 2.8 dəfə azalaraq 1.3 mlrd. ABŞ dolları, özəl sektor üzrə 3.6% azalaraq 5.8 mlrd. ABŞ dolları, fiziki

şəxslər üzrə isə 1.3% artaraq 0.7 mlrd. ABŞ dolları olmuşdur.

Qrafik 9. İdxalın dinamikası, ö.i.m.d.n %-lə



Mənbə: DGK

Ötən ilin eyni dövrü ilə müqayisədə idxal I rübdə 15.9%, II rübdə 28.9%, III rübdə isə 24.6% azalmışdır.

Dövr ərzində idxal əczacılıq məhsulları üzrə 30.8%, nəqliyyat vasitələri və onların hissələri üzrə 21.8%, yeyinti məhsulları üzrə 3%, qara metallar və onlardan hazırlanan məmulatlar üzrə 0.8% artmış, mebel üzrə 27.9%, gübrələr üzrə 21%, plastmassa və onlardan hazırlanan məmulatlar üzrə 14.2%, maşın və mexanızmlər üzrə isə 3.8% azalmışdır.

Qrafik 10. 2020-ci ilin 9 ayında bəzi məhsullar üzrə idxalın dəyişimi, %-lə



Mənbə: DGK

İdxal olunmuş məhsulların 18.4%-i Rusiya, 14.4%-i Türkiyə, 13%-i Çin, 6.7%-i ABŞ, 5.3%-i Almaniya, 4.3%-i Fransa və 4%-i Ukrayna kimi ölkələrinin payına düşmüşdür.

İlkin rəqəmlərə əsasən 2020-ci ilin 9 ayında ölkəyə daxil olan pul baratları 641 mln. ABŞ dolları olmuşdur.

Qrafik 11. Ölkəyə daxil olan pul baratları, mln. $



Mənbə: AMB

Hesabat dövründə də ölkədə xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala investisiya axınları davam etmişdir. DSK-nın məlumatına görə xarici mənbələrdən əsas kapitala yönəldilmiş investisiyaların həcmi 2020-ci ilin 9 ayında 3.8 mlrd. manat ekvivalentində olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş ümumi investisiyaların 36.1%-ni təşkil edir.

Qrafik 12. Xarici mənbələrdən əsas kapitala investisiya qoyuluşları, mln. manat



Mənbə: AMB

Xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş vəsaitin çox hissəsi Birləşmiş Krallıq, Türkiyə, Rusiya, İran, ABŞ, Yaponiya, Malayziya, İsveçrə və Norveç sərmayədarlarına məxsus olmuşdur.

Hesabat dövründə ölkənin strateji valyuta ehtiyatları qəbul edilmiş beynəlxalq kifayətlilik normalarını üstələməkdə davam etmişdir. 2020-ci ilin sentyabr ayının sonuna ölkənin strateji valyuta ehtiyatları 41 aylıq mal və xidmət idxalına kifayət etmişdir (2020-ci ilin I yarımilliyi üzrə mal və xidmət idxalı

götürülməklə). Strateji ehtiyatlar manatla pul kütləsini (M2) 5 dəfə üstələmişdir (01.10.2020 tarixinə olan M2 pul aqreqatı götürülməklə). Ölkənin strateji valyuta ehtiyatları illik ÜDM-in 100%-ni üstələyir.

II. AZƏRBAYCANDA MAKROİQTİSADİ PROSESLƏR

2.1. Məcmu daxili tələb

Hazırda davam edən pandemiya şəraiti ilə əlaqədar 2020-ci ilin 9 ayında məcmu daxili tələb amillərində və investisiya xərclərində azalma müşayiət edilmişdir.

İstehlak xərcləri. İstehlak xərclərinin komponentləri yanvar-sentyabr ayları ərzində azalmışdır.

2020-ci ilin yanvar-sentyabr aylarında istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə bazarda satılmış əmtəə və xidmətlərin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 7.7% azalaraq 33.5 mlrd. manat olmuşdur. Özəl sahibkarlıq subyektləri tərəfindən satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri ötən ilin müvafiq dövrünə nisbətdə 7.4% azalaraq 32.3 mlrd. manat olmuş və onun 49.6%-i fərdi sahibkarların payına düşmüşdür.

Cari ilin 9 ayı ərzində hər bir istehlakçı orta hesabla ayda 373.5 manatlıq və ya 2019-cu ilin eyni dövrü ilə müqayisədə 6% az əmtəə və ödənişli xidmətlərdən istifadə etmişdir.

Qrafik 13. İstehlak bazarında satışların həcminin real dəyişməsi, %-lə



Mənbə: DSK

Yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1.6% azalaraq 28.1 mrld. manat olmuşdur. Ərzaq məhsulları üzrə pərakəndə əmtəə dövriyyəsi 3.1% artmış, qeyri-ərzaq məhsulları üzrə dövriyyə isə 6.3% azalmışdır.

Hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 53.9%-i qida məhsulları, içkilər və tütün məmulatlarının alınmasına sərf

edilmişdir. Bu istiqamət üzrə xərclər ötən ilin eyni dövrü ilə müqayisədə 3.1% artmışdır. Sərf olunan xərclər toxuculuq məhsulları, geyim və ayaqqabı üzrə 14.2%, elektrik malları və mebel üzrə 7.2%, digər qeyri-ərzaq malları üzrə isə 3% azalmışdır. Əczaçılıq və tibbi mallara sərf olunan xərclər isə 37.4% artmışdır.

Cədvəl 1. Ticarət şəbəkələrində xərc istiqamətlərinin payı, %-lə

Xərc istiqaməti	Xüsusi çəki, %-lə	
	2019, 9 ay	**2020, 9 ay**
Qida məhsulları, içkilər və tütün məmulatları	50.6	53.9
Toxuculuq malları, geyim və ayaqqabılar	18.1	15.7
Elektrik malları və mebel	6.2	5.7
Kompyuterlər, telekommunikasiya avadanlıqları və digər məmulatlar	0.8	0.8
Əczaçılıq və tibbi mallar	1.3	1.8
Avtomobil yanacağı	5.5	5.3
Digər qeyri-ərzaq malları	17.5	16.8

Mənbə: DSK

Dövr ərzində hər bir istehlakçı fərdi istehlak məqsədi ilə pərakəndə ticarət müəssisələrində qida məhsulları, içkilər və tütün məmulatları üçün orta hesabla ayda 168.5 manat, qeyri-ərzaq malları üçün isə 144.1 manat vəsait sərf etmişdir.

Yanvar-sentyabr aylarında ötən ilin eyni dövrünə nəzərən ictimai iaşə dövriyyəsi 2.1 dəfə azalmışdır. Özəl sektorda ictimai iaşə dövriyyəsinin təxminən 46.3%-i müəssisələrin, 53.7%-i isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşmüşdür. Həmçinin dövr ərzində əhaliyə göstərilən pullu xidmətlərin dəyəri real ifadədə 25.7% azalaraq 4.9 mlrd. manat olmuşdur. Adambaşına düşən pullu xidmət istehlakı ötən ilin eyni dövrünə nəzərən nominal ifadədə 169.1 manat azalmışdır.

Pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirinin nəticəsi olaraq hesabat dövründə ilk dəfə olaraq əhalinin nominal gəlirlərində azalma müşayiət olunmuşdur. Belə ki, 2020-ci ilin yanvar-sentyabr aylarında əhalinin pul gəlirləri nominal olaraq 0.9% azalmış və 41.6 mlrd. manat təşkil etmişdir. Adambaşına düşən pul gəlirləri 1.7% azalaraq 4173 manat olmuşdur. Əhalinin sərəncamında qalan

gəlirlər isə 2.1% azalaraq 37.6 mlrd. manat təşkil etmişdir.

Dövr ərzində iqtisadiyyatda muzdla çalışan işçilərin nominal orta aylıq əməkhaqqı 17.1% artaraq 706.6 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqqı 624.1 manat (ö.i.m.d.n. 26.1% artım), özəl müəssisələrdə çalışanların isə 810 manat (ö.i.m.d.n. 9.1% artım) olmuşdur.

İstehlak tələbinin komponentlərindən biri olan ev təsərrüfatları üzrə kredit portfelinin həcmi ilin əvvəlindən bəri 3% azalaraq hesabat dövrünün sonuna 7.5 mlrd. manat olmuşdur.

Pandemiya səbəbindən iqtisadi aktivliyin aşağı olması və məcmu tələbin daralması istehlakçı davranışı göstəricilərində də özünü göstərir. 2020-ci ilin sentyabrında keçirilmiş "Ev təsərrüfatlarının maliyyə davranışları və niyyətləri sorğusu"nun nəticələri əsasında hesablanmış İstehlakçı İnamı İndeksi özündən əvvəlki rübə nəzərən azalmışdır. Artıq 4-cü rübdür ki, bu indeks neqativ zonadadır. Qeyd edək ki, bu göstərici müxtəlif gəlir səviyyəsinə malik ev təsərrüfatları arasında "Ailənin maliyyə vəziyyəti gözləntisi", "Ölkənin iqtisadi vəziyyətinə dair gözlənti", "Pul yığımı ehtimalı" və "İşsizlik gözləntiləri"nə dair sorğulara əsaslanır. III rübdə İstehlakçı İnamı İndeksinin azalması, əsasən ölkənin və ailənin maliyyə vəziyyətinə dair gözləntilərin pisləşməsi və işsizlik gözləntilərinin artması ilə əlaqədar olmuşdur.

Hökumətin xərcləri. 2020-ci ilin yanvar-sentyabr aylarında da dövlət xərcləri daxili tələbin dəstəklənməsində əhəmiyyətli rol oynamışdır. Dövr ərzində dövlət büdcəsinin xərcləri 18.6 mrld. manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nəzərən 11.7% çoxdur.

İqtisadi təsnifata uyğun olaraq cari ilin doqquz ayında dövlət büdcəsi xərclərinin 38,5 faizi və ya 7171.7 mln. manatı sosialyönümlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilmişdir ki,

bu da ötən ilin eyni dövrü ilə müqayisədə 21.8 faiz və ya 1283 mln. manat çoxdur.[1]

İnvestisiya xərcləri. 2020-ci ilin 9 ayında ölkə iqtisadiyyatına investisiya qoyuluşu 3.8% azalaraq 10.4 mlrd. manat təşkil etmişdir. Qeyri neft-qaz sektoruna 6 mlrd. manat həcmində vəsait yönəldilmiş və onun 19.1%-i qeyri neft-qaz sənayesi sektorunda istifadə edilmişdir. Cəmi investisiya qoyuluşlarının 38.8%-i dövlət, 61.2%-i isə özəl sektorun payına düşmüşdür.

Qrafik 14. İnvestisiyaların dinamikası, ö.i.m.d.n. dəyişim %-lə



Mənbə: DSK

Əsas kapitala yönəldilmiş investisiyaların 63.9%-i daxili mənbələr, 36.1%-i isə xarici mənbələr hesabına formalaşmışdır.

Cədvəl 2. İnvestisiya mənbələri, %-lə

	2019, 9 ay	**2020, 9 ay**
Müəssisə və təşkilatların vəsaitləri	57.5	59.9
Bank kreditləri	7.3	6.5
Büdcə vəsaitləri	26.9	22.3
Büdcədənkənar fondların vəsaitləri	1.5	1.8
Əhalinin şəxsi vəsaiti	6.6	6.1
Sair vəsaitlər	0.2	3.4

Mənbə: DSK

Hesabat dövründə əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyə mənbələri üzrə bölgüsündə müəssisə və təşkilatların vəsaitləri üstün paya malik olmaqda davam etmişdir.

[1] *http://www.maliyye.gov.az*

2.2. Məcmu təklif və məşğulluq

2020-ci ilin I rübünün son ayından etibarən özünü göstərməyə başlayan pandemiyanın neqativ təsirləri nəticəsində ÜDM-in real dəyişimi neqativ zonadadır.

İqtisadi artım. DSK-nın məlumatına əsasən 2020-ci ilin yanvar-sentyabr aylarında ÜDM ötən ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 3.9% azalmış və nominal olaraq 52.1 mlrd. manat təşkil etmişdir. Adambaşına düşən ÜDM-in həcmi 5222.5 manat olmuşdur.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 6.4% azalmışdır. Hesabat dövründə 26 milyon ton əmtəəlik xam neft, 19.4 milyard kub metr əmtəəlik təbii qaz hasil olunmuşdur. Ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq neft hasilatı 7.6 faiz azalmış, qaz hasilatı isə 8.3 faiz artmışdır.

Qrafik 15. Əlavə dəyərin sektorlar üzrə bölgüsü, %- lə



Mənbə:DSK

Qeyri neft-qaz sektorunda 2020-ci ilin 9 ayında yaradılan əlavə dəyər 2019-cu ilin müvafiq dövrünə nisbətən real ifadədə 2.4% azalmış və nominal olaraq 36.3 milyard manat təşkil etmişdir.

Qrafik 16. 2020-ci il yanvar-sentyabr üzrə iqtisadi artım, ö.i.m.d.n %



Mənbə:DSK

2020-ci ilin yanvar-sentyabr aylarının yekunu üzrə həm neft, həm də qeyri-neft iqtisadi artım tempinin ötən ilin müvafiq dövrü ilə müqayisədə azalması COVİD-19 pandemiyasının təsirləri ilə əlaqədar olmuşdur.

Əvvəlki ilin yanvar-sentyabr ayları ilə müqayisədə qeyri neft-qaz sənayesində 10.8% artım müşahidə olunmuşdur. Məhsul buraxılışı qeyri-neft sənayesinin tütün məmulatlarının istehsalı sektorunda 13.5%, geyim istehsalında 29.2%, kimya sənayesində 20.1%, avtomobil, qoşqu və yarımqoşquların istehsalında 72.2%, kağız və karton istehsalında 30.4%, metallurgiya sənayesində 74.9%, kompüter, elektron və optik məhsulların istehsalında 39.7% artım nümayiş etdirmişdir. Bununla yanaşı, neft məhsullarının istehsalı 5.5%, elektrik avadanlıqlarının istehsalı 9.6%, içkilərin istehsalı 9.8%, mebel istehsalı 26.6%, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 41.8% azalmışdır. Pandemiya ilə əlaqədar əczaçılıq mallarına artan tələb və yerli istehsal müəssisələrinin yaradılması şəraitində əczaçılıq məhsullarının istehsalı 8.2 dəfə artmışdır. Ümumilikdə sənayedə ötən ilin eyni dövrü ilə müqayisədə aralıq istehlak məhsullarının istehsalı 27.8% artmış, istehsal vasitələrinin istehsalı 6.9%, enerji məhsullarının istehsalı isə 5.6% azalmışdır.

2019-cu ilin yanvar-sentyabr ayları ilə müqayisədə kənd təsərrüfatında iqtisadi artım 1.5%, o cümlədən heyvandarlıq məhsulları üzrə 3.1%, bitkiçilik məhsulları üzrə isə 0.1% olmuşdur.

Cədvəl 3. ÜDM-in strukturu

Sektorlar	**Xüsusi çəki, %-lə**	
	2019 yanvar-sentyabr	2020 yanvar-sentyabr
Sənaye	42.5	34.7
Tikinti	6.1	6.3
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	6.2	7.6
Ticarət, nəqliyyat vasitələrinin təmiri	10	11.4
Nəqliyyat və anbar təsərrüfatı	6.3	7.4
Turistlərin yerləşdirilməsi və ictimai iaşə	2.5	1.3
İnformasiya və rabitə	1.8	2
Digər sahələr	15.7	19.1
Məhsula və idxala xalis vergilər	8.9	10.2

Mənbə:DSK

Mərkəzi Bank tərəfindən real sektorun monitorinqi üzrə aparılan sorğunun nəticələri də pandemiyanın iqtisadiyyata mənfi təsirlərinin qaldığını təsdiqləyir. Hesabat dövründə Biznes İnam İndeksi (Bİİ) müxtəlif sahələr üzrə fərqli dinamikaya malik olmuşdur.

Sənayedə ilin ilk rübündən başlayaraq pandemiya səbəbiylə Bİİ-nin mənfi zonada qalmaq meyili sentyabrda neytrallaşmışdır. Sənayenin ərzaq məhsullarının və içkilərin istehsalı, eləcə də tikinti materiallarının istehsalı sektorları bu neytrallaşmaya müsbət təsir göstərən faktorlar olmuşdur. Kimya sənayesi, tekstil, maşınqayırma və plastik materialların istehsalı sahələri isə son rübdə mənfi zonada qərarlaşmışdır.

Yanvar-fevral ayları ərzində ticarət üzrə Bİİ-nin pozitiv dinamikası pandemiya ilə əlaqədar növbəti 7 ayda enişlə əvəzlənmişdir. Ticarətin avtomobil, mebel, təsərrüfat malları və elektrik məişət avadanlıqları sahələrində son rübdə də iqtisadi aktivlik göstəriciləri mənfi zonada qalmışdır.

Xidmət sahəsi Bİİ üzrə ilk 4 ayda müsbət, növbəti 5 ayda isə mənfi zonada olmuşdur. Xidmət sahəsinin kommunikasiya sektoru Bİİ üzrə ilin bütün aylarında müsbət zonada, digər bütün sektorları (poçt, nəqliyyat, otelçilik, turizm və səhiyyə) isə son rübdə mənfi zonada mövqe tutmuşdur. RSM nəticələrinə görə xidmət sahəsi pandemiyadan ən çox əziyyət çəkən sektor olmuşdur.

Tikinti sektoru üzrə Bİİ yanvar-iyul ayları üzrə mənfi zonada qərarlaşsa da, son 2 ayda müsbət dinamika göstərmiş, son 4 ildə ilk dəfə pozitiv zonada qərarlaşmışdır.

Məşğulluq. 2020-ci ilin sentyabr ayının sonuna ölkədə iqtisadi fəal əhalinin sayı 5249.1 min nəfər təşkil etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 53.8 min nəfər çoxdur. Məşğul əhalinin sayı isə 4884.9 min nəfər təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 58.7 min nəfər azdır.

DSK-nın məlumatına görə muzdla çalışan işçilərin sayı 2020-ci ilin 1 oktyabr tarixinə ötən ilin müvafiq dövrü ilə

müqayisədə 2.6% artaraq 1681.6 min nəfər olmuşdur. O cümlədən iqtisadiyyatın dövlət sektorunda işləyənlərin sayı 902.3 min nəfər, qeyri-dövlət sektorunda isə 768.6 min nəfər təşkil etmişdir. Neft-qaz sektorunda 34 min nəfər, qeyri neft-qaz sektorunda isə 1636.9 min nəfər çalışmışdır.

Qrafik 17. İqtisadi fəal əhalinin sayı, dövrün sonuna, min nəfərlə



Mənbə:DSK

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 24.9%-i məhsul istehsalı sahələrində, o cümlədən, 7.7%-i emal sənayesi, 8.3%-i tikinti, 3.4%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2.1%-i mədənçıxarma, 1.7%-i su təchizatı və tullantıların təmizlənməsi və emalı sənayesində fəaliyyət göstərirlər.

DSK-nın məlumatına görə 1 işçiyə düşən orta aylıq işlənmiş saatların miqdarı 2019-cu ilin yekunu üzrə 151.8 saat, 2020-ci ilin 9 ayının yekunu üzrə isə 136 saat olmuşdur.

2.3. İnflyasiya

2020-ci ilin yanvar-sentyabr aylarında inflyasiya elan edilmiş illik hədəf diapazonunun mərkəzindən aşağıda qalmışdır.

İstehlak Qiymətləri İndeksi (İQİ). DSK-nın məlumatları əsasında aparılmış hesablamalara görə 2020-ci ilin sentyabrında 12 aylıq inflyasiya 2.6% (2020-ci ilin sentyabr ayı 2019-cu ilin sentyabr ayına nəzərən) təşkil etmişdir ki, bu da Mərkəzi Bankın elan etdiyi hədəf (4±2%) dəhlizinin mərkəzindən aşağıdır. [2]

Qrafik 18. 12 aylıq inlyasiya, %-lə (ötən ilin eyni ayı ilə müqayisədə İQİ-nin dəyişimi)



Mənbə: DSK

İstehlak səbətində əhəmiyyətli çəkiyə malik ərzaq məhsulları üzrə qiymət indeksi illik əsasda 4.3% artmışdır. İnflyasiyanın digər komponentləri olan qeyri-ərzaq məhsulları və xidmətlər üzrə illik bahalaşma templəri isə (müvafiq olaraq 1.4% və 1.2%) hədəf diapazonunun mərkəzindən əhəmiyyətli aşağıda qalır. Qeyri-ərzaq malları üzrə inflyasiyanın aşağı səviyyəsi başlıca olaraq pandemiya dövründə tələbin azalması ilə izah edilir. İnzibati qiymətlərin sabitliyi də qeyri-ərzaq və xidmət inflyasiyasının aşağı tempini şərtləndirən əsas amillərdəndir.

Qrafik 19. İnflyasiyanın komponentləri üzrə illik qiymət dəyişimi, %



Mənbə: DSK

[2] *DSK-nın məlumatlarına əsasən orta illik inflyasiya 2.9% təşkil etmişdir.*

İllik inflyasiyanın dəyişiminə 1.9 faiz bəndi ərzaq, 0.3 faiz bəndi qeyri-ərzaq, 0.4 faiz bəndi isə xidmətlərin qiymət dəyişimi töhvə vermişdir.

Qrafik 20. İQİ komponentlərinin töhvəsi, faiz bəndi ilə



Mənbə: DSK, AMB

Ərzaq inflyasiyası qida məhsulları üzrə 3.9%, spirtli içkilər üzrə 3.7% və tütün məmulatları üzrə 18.4% təşkil etmişdir.

İstehlak səbətində qiyməti artan və azalan məhsul və xidmətlərin sayındakı fərqin dəyişim dinamikasını göstərən diffuziya indeksi ilin əvvəlindən azalmışdır.[3] Ümumilikdə son 12 ayda 520 adda mal və xidmətdən 56-nın qiyməti azalmış, 48-in qiyməti isə dəyişməz qalmışdır. Bahalaşan məhsulların 55.5%-də qiymət artımı 2%-dən aşağı olmuşdur.

Qrafik 21. İnflyasiyanın miqyası, %



Mənbə: DSK, DSK-nın məlumatları əsasında AMB-nin hesablamaları

Ümumilikdə, inflyasiyaya məzənnə sabitliyi, monetar şərait, inzibati qiymətlərin dinamikası və inflyasiya gözləntiləri stabilləşdirici, virusdan qorunmaq üçün iqtisadi subyektlərin üzləşdikləri əlavə xərclər isə artırıcı təsir göstərmişdir.

Tənzimlənən qiymətlərin, həmçinin mövsümi xarakterli kənd təsərrüfatı məhsullarının qiymət dəyişimi nəzərə

[3] *İndeks (artan-azalan)/(azalan+dəyişməyən) şəklində hesablanır.*

alınmadan hesablanan orta illik baza inflyasiya 2020-ci ilin 9 ayında 2.1% təşkil etmişdir.

Pandemiyanın neqativ təsirləri fonunda I rübdə artan inflyasiya gözləntilərinin son aylarda enməsi qeydə alınmışdır. Real sektorun monitorinqinə görə sentyabr ayında avqust ilə müqayisədə inflyasiya gözləntiləri qeyri-neft sənayesi və ticarət sahələrində artmış, xidmət sektorunda azalmış, tikinti sektorunda isə demək olar ki, dəyişməmişdir. Ev təsərrüfatlarının üç aylıq inflyasiya gözləntiləri daha yüksək olmuş, lakin II rübdən etibarən azalmağa başlamışdır. Sentyabrda ev təsərrüfatları arasında aparılmış sorğuya görə inflyasiyanın yüksələcəyini gözləyən respondentlərin xüsusi çəkisi iyun ayı ilə müqayisədə 4 faiz bəndi azalaraq 25%-ə enmişdir.

Qrafik 22. İnflyasiyanın yüksəlməsini gözləyən ev təsərrüfatlarının payı



Mövcud makroiqtisadi siyasət çərçivəsi saxlanmaqla proqnozlar 2020-ci ilin sonuna inflyasiyanın hədəf intervalında (4±2%) qalacağını göstərir.

İstehsalçı qiymətləri indeksi. DSK-nın məlumatlarına əsasən ölkə daxilində istehsal olunan bütün mal və xidmətlərin qiymət dəyişməsini əks etdirən ÜDM deflyatoru 8.3% azalmışdır. Bu, əsasən sənayə sahəsində istehsalçı qiymətləri indeksinin azalması ilə bağlıdır.

Sentyabrda ayında kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətlərində son 12 ayda 2.4%-lik artım müşahidə olunmuşdur. Cari ilin iyun ayından etibarən kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətlərinin illik artım

tempində azalma müşahidə olunur. Sentyabrda qiymətlər heyvandarlıq məhsulları üzrə illik 2.2%, bitkiçilik məhsulları üzrə isə 2.6% artmışdır. Bununla yanaşı, meşə təsərrüfatı məhsulları üzrə istehsalçı qiymətləri 2.6%, balıq və sair balıqçılıq məhsulları üzrə isə 3.6% artmışdır.

Ötən ilin müvafiq ayına nəzərən sənaye məhsullarının istehsalçı qiymətləri indeksi illik 21.4% azalmışdır. Qiymət dəyişimi daha çox mədənçıxarma sənayesi (31.8% azalma) ilə bağlı olmuşdur. Mədənçıxarma sənayesində qiymət düşməsi əsasən dünya bazarlarında neftin qiymətinin kəskin azalması ilə əlaqədardır.

Emal sənayesi üzrə istehsalçı qiymətləri indeksi illik 6.3% azalmışdır. Emal sənayesi üzrə ən çox ucuzlaşma neft məhsullarının istehsalı (20.1%), poliqrafiya xidməti (9.4%) və tütün məmulatlarının istehsalı (6.6%) üzrə müşahidə edilmişdir.

Qrafik 23. Cari il üzrə istehsalçı qiymətləri indeksinin illik dəyişimi, %



Mənbə: DSK

2020-ci ilin sentyabr ayında nəqliyyat xidmətlərinin qiymətləri illik 0.8% artmışdır. Nəqliyyatda yükdaşıma xidmətləri illik 1% bahalaşmış, sərnişin daşıma xidmətləri isə 0.5% ucuzlaşmışdır. Bununla yanaşı, poçt və kuryer xidmətlərinin qiyməti 0.1% azalmış, rabitə xidmətlərinin qiyməti isə dəyişməmişdir.

II. PUL VƏ MƏZƏNNƏ SİYASƏTİ

3.1. Valyuta bazarı və manatın məzənnəsi

2020-ci ilin 9 ayında manatın xarici valyutalara nəzərən məzənnəsi valyuta bazarında tələb-təklif nisbətinə uyğun olaraq formalaşmışdır. Xarici mühitdə baş verən proseslərin neqativ təsirlərinə baxmayaraq hökumətin və Mərkəzi Bankın birgə həyata keçirdikləri qabaqlayıcı tədbirlər nəticəsində valyuta bazarında stabillik qorunmuşdur.

Hesabat dövründə valyuta bazarında əməliyyatların həcminin azalması müşahidə edilmişdir ki, bu da pandemiya ilə əlaqədar olaraq xarici iqtisadi əməliyyatların zəifləməsi ilə bağlı olmuşdur.

Dövr ərzində nağdsız valyuta bazarında aparılmış əməliyyatların həcmi ötən ilin müvafiq dövrünə nəzərən 4.1% azalaraq 18.7 mlrd. ABŞ dolları ekvivalentində olmuşdur [4] . Nağdsız valyuta əməliyyatlarının 86.7%-i ABŞ dollarında, 13.3%-i isə digər valyutalarda aparılmışdır. Valyuta əməliyyatlarının 36.2%-i banklararası valyuta bazarında (BVB), 63.8%-i isə bankdaxili valyuta bazarında (BDVB) həyata keçirilmişdir.

Dövr ərzində BVB-də əməliyyatların 99.3%-i ABŞ dollarında, 0.5%-i avroda, 0.2%-i isə digər valyutalarda aparılmışdır. BVB-də valyuta əməliyyatları üzrə dövriyyə əsasən "Bloomberg" platformasında aparılan əməliyyatlar hesabına formalaşmışdır.

BDVB-də valyuta əməliyyatlarının həcmi 11.2 mlrd. dollar ekvivalentində olmuşdur ki, bunun da 79.4%-ni ABŞ dolları ilə əməliyyatlar təşkil etmişdir. BDVB-də valyuta əməliyyatlarının 93.6%-i hüquqi şəxslərlə aparılan valyuta əməliyyatlarının payına düşmüşdür.

Banklar tərəfindən nağd xarici valyutanın alqı-satqısı üzrə aparılmış əməliyyatların həcmi ötən ilin müvafiq dövrünə nəzərən 2.6% azalaraq hesabat dövründə 4.2 mlrd. ABŞ dolları ekvivalentində olmuşdur. Bunun 3.7 mlrd. dollarını və ya 88.1%-ni ABŞ

[4] *ABŞ dolları, Avro, İngilis funt sterlinqi, Rus rublu ilə əməliyyatlar daxil olmaqla*

dolları ilə aparılmış əməliyyatlar təşkil etmişdir. Son bir neçə ayda nağd xarici valyutanın xalis satışı (satışlardan alışlar çıxılmaqla) stabilləşmişdir.

Qrafik 24. 2020-ci il üzrı banklar tərəfindən xarici valyutanın nağd satışı, mln.manat ekvivalentində



Mənbə: AMB

Qeyd: müsbət zona satışı, mənfi zona alışı göstərir.

Dövr ərzində Mərkəzi Bankda Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) valyuta satışlarının həyata keçirilməsi üzrə hərracların təşkili davam etdirilmişdir. Hər bir hərracın parametrləri haqqında məlumatlar hərrac başlamazdan əvvəl "Bloomberg" terminalı vasitəsilə bazar iştirakçılarına elan edilmişdir. Cari ilin 9 ayında Mərkəzi Bankda ümumilikdə 76 valyuta hərracı keçirilmişdir. I rübdə valyuta bazarında tələb artsa da, aprel ayından başlayaraq tələbin azalması və stabilləşməsi müşahidə olunur.

2020-ci ilin ötən dövründə manatın ABŞ dollarına nəzərən rəsmi məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə ("Bloomberg" platformasında hərraclar və hərracdan kənar əməliyyatlar nəzərə alınmaqla) əsasında müəyyən edilmişdir. 9 ay ərzində manatın ABŞ dollarına qarşı orta günlük rəsmi məzənnəsi 1.7 manat təşkil etmişdir. Banklar tərəfindən müəyyən edilən xarici valyutanın alış-satış məzənnələri rəsmi məzənnəyə yaxın olmuşdur. Belə ki, kommersiya banklarının orta hesabla günlük alış məzənnəsi 1.6990 satış məzənnəsi isə 1.7025 manat təşkil etmişdir. Rəsmi məzənnə ilə kommersiya banklarının orta günlük alış məzənnəsi arasında fərq 0.001 manat və satış məzənnəsi arasında fərq isə 0.0025 manat olmuşdur.

Dövr ərzində manatın məzənnəsi ticarət tərəfdaşı olan ölkələrin valyutalarına qarşı fərqli istiqamətlərdə dəyişmişdir. Belə ki, manatın məzənnəsi türk lirəsinə, qazax tengesinə, rus rubluna, ukrayna qrivnasına və gürcü larisinə qarşı

bahalaşmışdır. Manat bu dövrdə avroya, İsveçrə frankına, və yapon yeninə qarşı ucuzlaşmışdır.

İkitərəfli məzənnələrin dinamikası çoxtərəfli məzənnənin dinamikasına da təsir göstərmişdir. Ümumilikdə, hesabat dövründə manatın qeyri-neft ümumi ticarət çəkili nominal effektiv məzənnəsi 7.9%, real effektiv məzənnəsi isə 6.2% bahalaşmışdır. Azərbaycandakı inflyasiyanın ticarət tərəfdaşı olan ölkələr üzrə orta inflyasiyadan aşağı olması real effektiv məzənnəyə azaldıcı təsir göstərmişdir.

Qrafik 25. Effektiv məzənnə idekslər (illik dəyişmə), faizlə (%)



Mənbə: AMB

Qeyd edək ki, 2014-cü ilin sonu ilə müqayisədə REM 30% ucuzlaşmışdır ki, bu da qeyri neft-qaz sektorunun rəqabət qabiliyyətinə müsbət təsir göstərən amildir.

3.2. Pul siyasəti alətləri

2020-ci ilin 9 ayında pul siyasəti alətləri inflyasiyanın elan edilmiş hədəf (4±2%) çərçivəsində saxlamanmasına xidmət etmişdir. Ümumilikdə, dövr ərzində monetar şərait yumşaldılmışdır.

Dövr ərzində Mərkəzi Bank özünün likvidlik əməliyyatları üzrə faiz dəhlizinin parametrlərinə risklər balansını və yenilənmiş makroiqtisadi proqnozları nəzərə almaqla dəyişikliklər etmişdir. Mərkəzi Bankın İdarə Heyəti 2020-ci ilin 9 ayında faiz dəhlizinin parametrlərini 6 dəfə müzakirə etmişdir. Uçot dərəcəsinin mərhələlərlə 7.5%-dən 6.5%-ə, faiz dəhlizinin yuxarı həddinin 9.25%-dən 7% endirilməsi, faiz dəhlizinin aşağı həddinin isə 5.75%-dən 6%-ə qaldırılması haqqında qərarlar qəbul edilmişdir. Qəbul edilmiş qərarlar makroiqtisadi sabitlik hədəflərilə iqtisadi aktivliyin dəstəklənməsi prioritetləri arasında optimal balansın qorunmasına xidmət etmişdir. Mərkəzi Bank faiz dərəcələri ilə bağlı qərarları öncədən elan edilmiş qrafik üzrə və müvafiq analitik şərhlərlə ictimaiyyətə açıqlanmışdır.

2020-ci ilin yanvar-sentyabr aylarında iqtisadiyyatda likvidliyin effektiv idarə olunması məqsədilə Mərkəzi Bank müxtəlif müddətli bazar əməliyyatları aparmağa davam etmişdir. Bank sisteminin likvidlik mövqeyindən asılı olaraq Mərkəzi Bankın həyata keçirdiyi sterilizasiya əməliyyatlarına tələb aylar üzrə dəyişkən olmuşdur.

Qrafik 26. Faiz dəhlizinin parametrləri, %



Mənbə: AMB

Koronavirus pandemiyasının makroiqtisadi sabitlik və valyuta bazarı üzərində yaratmış olduğu təhdidlərin

yumşaldılması məqsədilə Mərkəzi Bank sterilizasiya alətlərinin müddətlərinə dəyişiklik etmiş, bununla da sterilizasiya portfelinin durasiyası azaldılmışdır. Belə ki, 28 günlük depozit hərracları əvəzinə yalnız 14 günlük depozit hərraclarının keçirilməsinə, uzunmüddətli not hərraclarının əvəzinə yalnız 28 günlük notların yerləşdirilməsinə başlanılmışdır.

Hesabat dövründə Mərkəzi Bank milli valyutada sərbəst vəsaitlərin cəlb olunması üzrə 49 depozit hərracı keçirmişdir. Sentyabr ayının sonuna depozit əməliyyatları ilə cəlb edilmiş vəsaitlərin qalığı 250 mln. manat təşkil etmişdir.

Qrafik 27. Mərkəzi Bank tərəfindən cəlb edilən depozitlərin həcmi və gəlirliyi



Mənbə: AMB

Depozit əməliyyatları ilə yanaşı, Mərkəzi Bank 2020-ci ilin 9 ayında 33 not hərracı keçirmişdir. Bu hərracların 7-də uzunmüddətli (84 günlük, 168 günlük, 252 günlük) notlar, digər 26-da isə 28 günlük notlar yerləşdirilmişdir. Ümumilikdə, rübün sonuna notlar vasitəsilə sterilizasiya olunmuş vəsaitin toplam qalığı 709 mln. manat təşkil etmişdir.

Qrafik 28. Mərkəzi Bank tərəfindən yerləşdirilmiş notların həcmi və gəlirliliyi



Mənbə: AMB

Depozit əməliyyatları və notların yerləşdirilməsi üzrə hərraclarda adətən tələbin təklifi üstələməsi müşahidə olunmuş, nəticədə bu alətlər üzrə gəlirlilik faiz dəhlizinin aşağı həddinə yaxın səviyyədə qərarlaşmışdır.

Mərkəzi Bankın sterilizasiya alətləri üzrə gəlirlilik pul bazarının vacib reprezentativ göstəricisinə çevrilməklə digər maliyyə alətləri üzrə faiz dərəcələrinə təsir göstərməkdədir. Eyni zamanda Mərkəzi Bankın emissiya etdiyi notlar REPO bazarında təminat qismində istifadə olunmaqla banklararası bazarın aktivləşməsinə müsbət təsir göstərir.

2020-ci ilin yanvar-sentyabr aylarında məcburi ehtiyat normaları dəyişməz saxlanılmışdır. Məcburi ehtiyat normalarının ortalama mexanizmi əsasında tətbiqinin davam etdirilməsi banklar tərəfindən likvidliyin çevik idarə edilməsinə müsbət təsir göstərən amillərdən biri olmuşdur. Aparılmış monitorinqlərin nəticələrinə əsasən hesabat dövrü üzrə bütün aylarda bankların Mərkəzi Bankdakı müxbir hesablarının toplam qalıqları dövr üçün məcburi ehtiyat kimi saxlanmalı olan cəmi vəsaitlərin həcmini əhəmiyyətli üstələmişdir.

3.3. Pul təklifi

2020-ci ilin 9 ayında pul təklifinin dinamikası aylar üzrə dəyişkən olmuşdur. Əsasən dövlət büdcəsində profisitin əmələ gəlməsilə bağlı I rübün son ayında əhəmiyyətli azalan pul təklifi II rübdən başlayaraq tədricən bərpa olunmuş və mülayim artım meyili III rübün bütün ayları üzrə davam etmişdir.

9 ay ərzində manatla pul bazası 0.6% artmış və dövrün sonuna 12.2 mlrd. manat təşkil etmişdir.

Hesabat dövründə manatla pul bazasının struktur elementi olan dövriyyədəki nağd pulun həcmi [5] 2% artmış, manatla müxbir hesabların qalığı isə 7.2% azalmışdır.

Cədvəl 4. Pul aqreqatları, mlrd. manat

	01.10.20 mlrd.man	***01.04.20 (%)***	***01.07.20 (%)***	***01.10.20 (%)***
M0	*9.9*	*-10,2*	*-2,7*	*3.8*
M1	*15.9*	*-10,1*	*-3,0*	*3.4*
M2	*18.4*	*-9,8*	*-5,9*	*1*
M3	*26.8*	*-7,4*	*-9,2*	*-7.2*

Mənbə: AMB

Manatla geniş pul kütləsi hesabat dövründə 1% artaraq 9 ayın sonuna 18.4 mlrd. manat təşkil etmişdir.

Qrafik 29. Manatla geniş mənada pul kütləsinin dinamikası, mlrd. manat



Mənbə: AMB

Manatla pul kütləsinin (M2) strukturunda dövriyyədə olan nağd pul,

[5] bank sistemindən kənarda nağd pul, bankların kassalarında və bankomatlarda olan pullar

tələb olunana kimi əmanət və depozitlər və müddətli əmanət və depozitlər fərqli dinamika nümayiş etdirmiş və geniş mənada manatla pul kütləsinin böyük hissəsini nağd pul təşkil etmişdir.

Hesabat dövründə geniş mənada pul kütləsinin tərkibinə daxil olan nağd pul kütləsi 3.8% (M2-də xüsusi çəkisi 53.5%), manatla tələb olunanadək əmanət və depozitlər 2.8% artmış (M2-də xüsusi çəkisi 32.9%), müddətli əmanət və depozitlər isə 11.9% (M2-də xüsusi çəkisi 13.6%) azalmışdır.

2020-ci ilin 9 ayı ərzində manatla geniş mənada pul kütləsinin tərkibində hüquqi şəxslərin manatla depozitləri 6.9% artmış, fiziki şəxslərin manatla əmanətləri isə 12.6% azalmışdır.

Dövr ərzində geniş pul kütləsi (M3) 7.2% azalmış və dövrün sonuna 26.8 mlrd. manat təşkil etmişdir.

Hesabat dövründə geniş mənada pul kütləsinin dəyişiminə XXA və XDA azaldıcı təsir etmişdir. Belə ki, XXA-nın bu azalmada payı 69%, XDA-nın payı isə 31% olmuşdur.

2020-ci ilin I rübünün son ayında depozitlərin dollarlaşması bir qədər artsa da, II rübdən başlayaraq azalma meyili müşahidə olunmuşdur. Bu azalma meyili III rübün ayları üzrə də davam etmişdir. Belə ki, xarici valyutada əmanət və depozitlərin cəmi əmanət və depozitlərdə xüsusi çəkisi 2020-ci ilin mart ayında 56.5% olsa da, iyunun sonunda bu rəqəm 53.3%-ə, sentyabr ayının sonunda isə 49.4%-ə enmişdir. Xarici valyutada əmanət və depozitlərin M3 pul aqreqatında xüsusi çəkisi 2020-ci ilin 9 ayının sonuna 31.2% olmuşdur (ötən ilin sonunda 36.8%).



Mənbə: AMB

Hüquqi şəxslərin depozitlərində xarici valyutanın payı azalaraq I rübün sonunda 65.6%-dən 9 ayın sonuna 58.2%-ə enmişdir. Fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsində də azalma baş vermişdir. Belə ki, bu rəqəm birinci rübün sonunda 54%, 9 ayın sonunda isə 53.9% təşkil etmişdir.

İstifadə olunmuş qrafik və cədvəllər

Qrafiklər

Qrafik 1 İƏİT ölkələrində qabaqlayıcı iqtisadi aktivlik indeksləri ---------- 4

Qrafik 2 İqtisadi artım proqnozları ---------- 5

Qrafik 3 Əmtəə qiymətləri indeksi ---------- 10

Qrafik 4 Dünya neft bazarı---------- 11

Qrafik 5 Ticarət balansı ---------- 13

Qrafik 6 Ticarət dövriyyəsində əsas ölkələr ---------- 13

Qrafik 7 İxracın artım tempi ---------- 14

Qrafik 8 2020-ci ilin 9 ayında bəzi məhsullar üzrə ixracın dəyişimi---------- 14

Qrafik 9 İdxalın dinamikası ---------- 15

Qrafik 10 2020-ci ilin 9 ayında bəzi məhsullar üzrə idxalın dəyişimi---------- 15

Qrafik 11 Ölkəyə daxil olan pul baratları---------- 16

Qrafik 12 Xarici mənbələrdən əsas kapitala investisiya qoyuluşları ---------- 16

Qrafik 13 İstehlak bazarında satışların həcminin real dəyişməsi ---------- 18

Qrafik 14 İnvestisiya qoyuluşu ---------- 21

Qrafik 15 Əlavə dəyərin sektorlar üzrə bölgüsü ---------- 23

Qrafik 16 2020-ci il yanvar-sentyabr üzrə iqtisadi artım---------- 23

Qrafik 17 İqtisadi fəal əhalinin sayı ---------- 26

Qrafik 18 12 aylıq inflyasiya ---------- 27

Qrafik 19 İQİ-nin komponentləri üzrə illik inflyasiya ---------- 27

Qrafik 20 İQİ komponentlərinin töhvəsi---------- 28

Qrafik 21 İnflyasiyanın miqyası---------- 28

Qrafik 22 İnflyasiyanın yüksəlməsini gözləyən ev təsərrüfatlarının payı---------- 29

Qrafik 23 Cari il üzrə istehsalçı qiymətləri indeksinin illik dəyişimi ---------- 30

Qrafik 24 Banklar tərəfindən xarici valyutanın nağd satışı---------- 32

Qrafik 25 Effektiv məzənnə idekslər ---------- 33
Qrafik 26 Faiz dəhlizinin parametrləri ---------- 34
Qrafik 27 Mərkəzi Bank tərəfindən cəlb edilən depozitlərin həcmi və gəlirliyi --------- 35
Qrafik 28 Mərkəzi Bank tərəfindən yerləşdirilmiş notların həcmi və gəlirliliyi --------- 36
Qrafik 29 Manatla geniş mənada pul kütləsinin dinamikası ---------- 37
Qrafik 30 Dollarlaşma ---------- 39

Cədvəllər

Cədvəl 1 Ticarət şəbəkələrində xərc istiqamətlərinin payı ---------- 19
Cədvəl 2 İnvestisiya mənbələri ---------- 21
Cədvəl 3 ÜDM-in strukturu ---------- 24
Cədvəl 4 Pul aqreqatları ---------- 37

Azərbaycan Respublikası Mərkəzi Bankı

Tel.: (+99412) 493 11 22

http://www.cbar.az

Ünvan: AZ1014, Bakı, R.Behbudov küçəsi, 90